# Qayğıya cavab olaraq



**Son illər respublikamızın istər iqtisadi, istərsə də mədəni həyatında böyük dəyişikliklər baş verir. Bu gün respublikamız tikinti meydanına çevrilib. Bir-birindən yaraşıqlı binalar, məktəblər, mədəniyyət və istirahət ocaqları tikilir. İnsanların mədəni səviyyəsi yüksəlir. Rayonumuz artıq dərəcədə gözəlləşmişdir.**

**Rayon Mədəniyyət və Turizm şöbəsinin kollektivi Prezidentimizin və dövlətimizin mədəniyyət sahəsində qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə layiqincə əməl edirlər.**

**Ağdam Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində kitabxana işi təşkil olunarkən kitab təbliği, oxucu maraqlarının öyrənilməsi və artırılması daim diqqət mərkəzində saxlanılmışdır.**

Bu baxımdan Ağdam Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin və onun filiallarının üzərinə böyük məsuliyyət düşür.

1993-cü ilə qədər rayonda 106 kitabxana fəaliyyət göstərmişdir. Hal-hazırda isə 51 kitabxana cəbhə bölgəsinə yaxın kəndlərdə fəaliyyət göstərir.

Bu kitabxanaların əksəriyyəti Mərkəzləşdirilmiş Kitabxana Sistemi ilə müntəzəm olaraq əlaqə saxlayır, metodik göstərişlər alırlar. Mərkəzləşdirilmiş Kitabxana Sistemi üzrə 2009-cu il ərzində kənd kitabxanaları daxil olmaqla Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunmuş 141 min 400 nüsxə kitab fonda daxil olmuş, 14 min 900 nəfər oxucuya xidmət göstərmişdir.

Filiallar da daxil olmaqla kitabxanaların fondundan 30 min fiziki cəhətdən yararsız hala düşmüş, məzmunca əhəmiyyətini itirmiş nəşr və materiallar çıxarılmışdır.

MKS M.F.Axundov adına Milli Kitabxana ilə əməkdaşlıq edir. Xidmət işini günün müasir tələblərinə uyğun olaraq qurmaq üçün metodiki tövsiyələr alır və onları həyata keçirir. 7 ay ərzində 6 nəfər kitabxanaçı respublika hazırlıq və ixtisasartırma kurslarında müasir kitabxanalar və onların qarşısında duran vəzifələri, kitabxana işində olan yeniliklər barədə öz ixtisaslarını təkmilləşdirmişlər.

2010-cu ildə mərkəzləşdirilmiş kitabxana və kitabxana filiallarında 20 yanvar və Xocalı faciələrinin ildönümü ilə bağlı tədbirlər, plana uyğun olaraq kitab, qəzet və fotolardan ibarət sərgilər, guşələr, stendlər təşkil edilmişdir.



Bu tədbirlərin keçirilməsində Ayaqqərvənd, Orta Qışlaq kənd kitabxanasının klub və mədəniyyət işçilərinin böyük əməyi olmuşdur. Öz işini günün tələbləri səviyyəsində quran kitabxanalardan 2 saylı Quzanlı kitabxanası, 45 saylı Əlimədədli kitabxanası, 24 saylı Əlimədağalı kitabxanası, 44 saylı Mərzili kitabxanası, 9 saylı Ayaqqərvənd kitabxanası, 23 saylı Orta Qışlaq kitabxanasını göstərmək olar.

Novruz bayramı ilə əlaqədar olaraq Bahar müjdəli novruzum tədbiri çox yüksək səviyyədə rayonda qeyd olunmuşdur. 8 mart Beynəlxalq Qadınlar günü münasibətilə Cənnət anaların ayaqları altındadır adlı bədii gecə, 28 may Respublika günü ilə əlaqədar olaraq Müstəqilliyimiz əbədidir, Bir kərə yüksələn bayraq bir daha enməz ədəbi-bədii gecə, oxucu konfransları və məruzələr, 15 iyun Qurtuluş günü münasibətilə Möhtəşəm qayıdış, Xalqın xilaskarı adlı məruzə və söhbətlər keçirilmiş, kitb və foto sərgilər təşkil olunmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin doğum gününə həsr olunmuş Dahilərin dahisi adlı məruzə, divar qəzetləri və foto-sərgilər, Müasir Azərbaycan dövlətçiliyinin memarı adlı fotostend təşkil edilmişdir.

Xalq şairi Zəlimxan Yaqubun anadan olmasının 60 illiyi, xalq yazıçısı Süleyman Rəhimovun anadan olmasının 110 illiyi, xalq artisti, bəstəkar Polad Bülbüloğlunun 65 illik yubileyi, yazıçı Sabit Rəhmanın anadan olmasının 100 illiyi, Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 140 illiyi ilə əlaqədar demək olar ki, bütün müəssisələrimizdə xatirə gecələri, kitab sərgiləri keçirilmişdir. Bütün bu tədbirlərin keçirilməsində rayon Mədəniyyət evinin və klub işçilərinin yaxından köməkliyi olmuşdur.

Nailiyyətlərimizlə bərabər nöqsanlarımız da az deyil. Bəzi kitabxanalarda oxucuların kitabxanaya cəlb edilməsi işi zəif aparılır.

Mədəni-kütləvi tədbirlərin keçirilməsində fəal iştirak etmirlər. İş otaqları günün tələbləri səviyyəsində deyildir. Keçirilən tədbirlərin materialları azlıq təşkil edir.

**Dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq aşağıda adları çəkilən kitabxanalar tənqiddən nəticə çıxarmamışlar. Belə kitabxanalardan 13 saylı Hacıturalı kənd kitabxanası, 20 saylı Küdürlü kənd kitabxanası, 35 saylı Qəhrəmanbəyli kənd kitabxanası, 34 saylı Kiçikli kənd kitabxanasını göstərmək olar. Görünür, onlar haqqında ciddi ölçü götürmək lazım gələcək...**

**Həsən XƏLİLOV,**
*Ağdam Rayon MKS-in direktor əvəzi*

